

# İçindəkilər


01 Peşə təhsili və təlimi üzrə sübutların təkmilləşdirilməsi: İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının yeni beynəlxalq peşə təhsili və təliminin qiymətləndirilməsi

02 Pedaqoqların və öyrənənlərin səlahiyyətlərinin artırılması: EdTech hazırlıq İndeksindən anlayışlar və strategiyalar

03 Avropada məktəbdə xarici dillərin tədrisi ilə bağlı əsas məlumatlar

04 Qlobal öyrənməni yaxşılaşdırmaq üçün səmərəli yanaşmalar - ən son məlumatlara görə, aşağı və orta gəlirli ölkələrdə öyrənməni yaxşılaşdırmaq üçün "səmərəli xərc" nədir?


Beynəlxalq Təhsil İcmalı
May 2023

# Peşə təhsili və təlimi üzrə sübutların təkmilləşdirilməsi: İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının yeni beynəlxalq peşə təhsili və təliminin qiymətləndirilməsi

01

İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı tərəfindən "Peşə təhsili və təlimi üzrə sübutların təkmilləşdirilməsi: İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının yeni beynəlxalq peşə təhsili və təliminin qiymətləndirilməsi" adlı məqalə hazırlanmışdır.

Məqalədə qeyd olunur ki, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatına üzv ölkələrdə tam orta təhsildə olan 15-19 yaşlı hər üç gəncdən biri peşə proqramlarında iştirak edir. Eyni zamanda, ilk dəfə ali təhsil müəssisələrinə daxil olan tələbələrin 17%-i əsasən peşəkar xarakter daşıyan qısa müddətli peşə proqramlarında iştirak edirlər. Lakin, peşə təhsili proqramları üzrə müqayisəli qiymətləndirmə məlumatlarının olmaması ölkələrin bu sahədəki fəaliyyətini qiymətləndirməkdə və ən yaxşı beynəlxalq təcrübələri öyrənməkdə çətinlik yaradır.

Bundan əlavə məqalədə direktiv (siyasi) orqanlar tərəfindən, məsələn, ölkə və peşə təhsili sahələri üzrə nisbi nailiyyət səviyyəsini, peşə təhsili sistemindəki siyasət nəticələrini müəyyən etməyə, peşə təhsili üzrə bir şagirdə düşən xərclər smetasını müqayisə etməyə və nəticələri nəzərdən keçirməyə imkan verən məlumatlara tələbatın artdığı bildirilir.

**Peşə təhsili proqramlarında tələbələrin peşə bacarıqlarını qiymətləndirmək üçün PISA-ya güvənmək.**

Peşə təhsili sahəsində mövcud boşluqları doldurmaq məqsədilə İƏİT (OECD) PISA-Peşə təhsili adlanan beynəlxalq qiymətləndirmə təşəbbüsünə başlayır. Bu əsasda PİSA qiymətləndirmə təcrübəsi və peşə təhsili siyasət təcrübəsinə əsaslanaraq, İƏİT Peşə təhsili proqramlarında təhsilalanların peşəkar bacarıqlarının beynəlxalq qiymətləndirilməsini hazırlamaq üçün bir sıra ölkə və ekspertlə əməkdaşlığa başlamışdır. Beynəlxalq Peşə təhsili qiymətləndirməsi aşağıdakı bir sıra nəticələri və əlaqəli amilləri, o cümlədən siyasət anlayışını təmin edəcək.

1) ölkələr və proqramlar üzrə tələbələrin müqayisəli bacarıq səviyyələri;
2) məktəblər və proqramlar arasında fərqlər;
3) proqram dizaynında və tələbə təcrübəsində fərqlər;
4) proqram növü və tələbələr arasında müxtəliflik.

Yeni **PISA-Peşə təhsili** adlanan beynəlxalq qiymətləndirmənin məqsədəuyğunluğunu sınayacaq inkişaf mərhələsi ilk olaraq aşağıdakı peşə sahələrində ilkin peşə proqramlarını tamamlayacaq tələbələrə yönəldiləcəkdir.

a) biznes və idarəetmə, b) avtomobil mexatronikası, c) elektrik, ç) səhiyyə, d) turizm və otelçilik.

Bu peşə sahələrinin qiymətləndirmədə seçilməsinə səbəb, onların hər birinin əmək bazarı üçün vacib olan peşə təhsili proqramları haqqında etibarlı mülahizələrə gəlmək üçün əksər iştirakçı ölkələrdə kifayət qədər böyük olan tələbə kontingentinin olmasıdır.

Qiymətləndirmə təcrübəyönümlü, texniki bacarıqlar və məşğulluq bacarıqları da daxil olmaqla peşəkar bacarıqlara diqqəti yönəldəcək. Qiymətləndirmədə peşə təhsili proqramlarını bitirməyə son altı ayı qalmış tələbələr iştirak edəcək.

Qiymətləndirmə tələbələrin rəsmi, qeyri-rəsmi təhsil və institusional imkanları kimi faktorları əhatə edir. Qiymətləndirmə bu kontekstual amillər haqqında məlumatları aşağıdakı vasitələrdən istifadə edərək toplayacaq:

-Tələbə anketi;
-Müəllim anketi;
-Qurumlar üçün anket;
-Sistem səviyyəsində məlumat toplama anketi.

Növbəti iki il ərzində İƏİT və ona üzv ölkələr ekspertlərlə birlikdə qiymətləndirmədə diqqət ediləsi məsələlərlə bağlı əməkdaşlıq etməyi planlaşdırır.

Nəzərdə tutulan iki illik inkişaf mərhələsinin sonunda bu suallara cavab verən çərçivə sənədi, həmçinin sübuta yönəlmiş, özünü doğrultmuş və etibarlı qiymətləndirmə alətlər dəsti hazırlanacaq. İnkişaf mərhələsinin nəticələrindən asılı olaraq, bu yeni təşəbbüs daha sonra pilot mərhələdə tətbiq olunacaq. PISA-Peşə təhsili qiymətləndirməsi əmək bazarında peşə təhsili və peşə hazırlığının aktuallığını, keyfiyyətini və sosial vəziyyətini yaxşılaşdırmaq baxımından böyük sərmayələr verə bilər.



Bu qiymətləndirmə çərçivə sənədi aşağıdakı 3 əsas amili əhatə edəcək.
1. Peşə təhsili proqramı üzrə təlim nəticələrini;
2. Uğurlu peşə təhsili proqramlarını;
3. Bərabərlik və ədalətliliyi qiymətləndirmək üçün demoqrafik amilləri.

Peşə təhsili sahəsində üstünlüklərə nail olmaq üçün İƏİT, ona üzv ölkələr, eləcə də ixtisasları qiymətləndiriləcək istehsal sahələri bu qiymətləndirmədən əldə ediləcək nəticələrin etibarlılığını və beynəlxalq müqayisəsini təsdiqləməlidir.

Bu təsdiqləməni təmin etmək üçün İƏİT, qiymətləndirmə çərçivələrinin və alətlərinin inkişafına mərhələli bir yanaşma təqdim edəcək. Bu yanaşma da ölkələrə tərəqqini təhlil etməkdə və sonrakı işlərdə qərar qəbulunda çoxsaylı imkanlar verəcək.

Həmçinin yeni qiymətləndirmə bütün tələbələrin xeyrinə olaraq, təhsil sistemlərinin daha ədalətli, inklüziv olmasına, daha çox multikultural şüurun formalaşmasına kömək edəcək.

PISA-Peşə təhsili son məqsədi həm keyfiyyət, həm də cəlbedicilik baxımından Peşə təhsilini təkmilləşdirməkdir. Bununla da, İƏİT və tərəfdaş ölkələr peşə təhsilinə lazımi diqqət yetirərək peşə təhsili almaq istəyən bütün gənclərin təlim və ya yenidən hazırlıq ehtiyacını təmin etmək məqsədilə peşə proqramlarını cəlbedici bir seçim halına gətirməyə çalışırlar.

Mənbə: Improving evidence on vocational education and training (VET): OECD’s new International VET Assessment, March 17,2023.
https://oecdedutoday.com/improving-evidence-on-vocational-education-and-training-vet-oecds-new-international-vet-assessment/

# Pedaqoqların və öyrənənlərin səlahiyyətlərinin artırılması: EdTech hazırlıq İndeksindən anlayışlar və strategiyalar

02

Dünya Bankı, Imaginable Futures təşkilatı tərəfindən EdTech hazırlıq indeksi dünyada təhsil, texnologiya siyasəti və təcrübələrini izləmək, dəstəkləmək üçün yaradılmışdır. Bu vasitə ölkələrarası təhlilin aparılmasına kömək edir. Eyni zamanda, ölkənin EdTech-ə hazırlıq səviyyəsinə dair yüksək səviyyəli direktivləri dəstəkləyən məlumatlar toplamaq istiqamətində bir vasitədir.
Aşağıda effektiv EdTech siyasətinin altı əsas meyarı qeyd olunmuşdur:
1) məktəbin idarə edilməsi
2) müəllimlər
3) şagirdlər
4) qurğular
5) əlaqə
6) rəqəmsal resurslar.
EdTech hazırlıq İndeksi qərarlar qəbul etmək, məktəblərin öyrənmə imkanlarını artırmaq, bərabərsizliyi azaltmaq üçün rəqəmsal alətləri niyə, harada və necə tətbiq edə biləcəyi barədə məlumat vermək üçün səmərəli bir vasitə kimi hazırlanmışdır.
Pilot mərhələdə sistem 2022-ci ildə beş ölkədə tətbiq olundu: Dominikan Respublikası, Nepal, Vyetnam (Ho Chi Minh City), Sierra Leone və Nigeriya. Aşağıda EdTech hazırlıq İndeksi pilotundan bəzi nəticələr verilmişdir.
Məqalədə müxtəlif bölgələrdə və təhsil müəssisələrində həyata keçirilən pilot layihələr, ölkələrin davamlı EdTech siyasətini inkişaf etdirmək üçün tətbiq edə biləcəyi beş keçid vasitəsinin əhəmiyyəti bildirilir.
Burada beş tövsiyə qeyd olunur.
**1. Uyğunluq:** aydın məqsəd, milli İKT təhsil siyasəti ilə rəqəmsal öyrənməyə sistemli yanaşmanı təmin etməyə kömək edə bilər. Belə ki, ölkələr milli İKT təhsil siyasəti vasitəsi ilə rəqəmsal öyrənməyə sistemli bir yanaşma təmin etmək üçün "rəqəmsal maneələri" müəyyənləşdirmək və izləmək üçün tədbirlər görməyi düşünməlidirlər. EdTech-in ən faydalı strategiyası təhsilə, təlimə, infrastruktur və əlaqələrə yönəlmiş milli prioritetlərə uyğundur.
**2. Büdcə:** EdTech-in planlaşdırılması və tətbiqi üçün tələb olunan xərcləri müəyyənləşdirin. Eyni zamanda, yalnız cihazlar və ya proqram təminatını deyil, hərtərəfli yanaşmanı nəzərdən keçirin. İqtisadi səmərəliliyi maksimum dərəcədə artırın və resursların tələbə nəticələrinə təsirini qiymətləndirin.
**3. Əlaqə:** Həm şəhər mərkəzlərində, həm də kənd yerlərində məktəbləri əhatə edən əlaqə planının tətbiqi rəqəmsal öyrənməni daha effektiv edə bilər. Hökumətlər müxtəlif kontekstlər üçün uyğun telekommunikasiya texnologiyalarını araşdıra və internet bağlantısı üçün minimum hədəfi müəyyənləşdirə bilər. Təhsil inzibatçıları ilə telekommunikasiya operatorları arasında koordinasiyanın təmin edilməsi və həmçinin internet bağlantısının keyfiyyətinə mütəmadi olaraq nəzarətin gücləndirilməsi vacibdir.
**4. Xüsusiyyətlər:** idarəetmə, tədris və özünütəhsil üçün cihazların (kompüterlər, noutbuklar və s.) təmin edilməsi sistematik planla inkişaf etdirilə bilər. Rəqəmsal texnologiyanın sinif otağına inteqrasiyası müəllimlərə, şagirdlərə onlardan səmərəli istifadə etməyə və öyrənmə keyfiyyətini yaxşılaşdırmağa imkan verəcək.
**5. Kuratorluq:** Tətbiqetmə planları keyfiyyət standartlarını müəyyənləşdirməklə yanaşı, yüksək keyfiyyətli rəqəmsal təhsil mənbələrinə və platformalarına çıxış təmin edir.
Həmçinin məqalədə qeyd olunur ki, Edtech təhsilin vacib bir hissəsinə çevrilərək, uğurlu inteqrasiya prioritetləri müəyyənləşdirməyi, effektiv tətbiq etməyi və tərəqqini izləməyi tələb edir. EdTech-in təhsil sistemlərini dəstəkləmək strategiyası məqsədlər, idarəetmə, yol xəritəsi, texniki qruplar, iş planı, keyfiyyət standartları və monitorinq planlarını müəyyənləşdirməlidir.
Müəllimlər texnologiyanı tədrisə effektiv şəkildə inteqrasiya etmək üçün yerində dəstəyə ehtiyac duyurlar. Nəticələr göstərir ki, şagirdlərin rəqəmsal səriştələrini inkişaf etdirmək üçün rəqəmsal texnologiyalardan necə istifadə olunacağına dair aydın tövsiyələrə və təcrübələrə ehtiyac duyurlar. Bu təlimatların müəllimlərin peşəkar inkişafına daxil edilməsi onlara İKT bacarıqlarını inkişaf etdirməyə və zamanla öz effektivliyini artırmağa imkan verəcəkdir.



Məqalədə sinifdə yenilikçi texnologiyaların tətbiqi üçün bir çox imkanlar olduğu qeyd edilir. Rəqəmsal təhsilin inklüzivliyini və əlçatanlığını təmin etmək hələ də əsas vəzifə olaraq qalmaqdadır. Bütün pilot ölkələrdə öyrənmə cihazları və təhsil texnologiyaları xüsusi ehtiyacı olan şagirdlər üçün əlçatan olmalıdır. Məktəblər köməkçi texnologiyaların tətbiqi üçün planlaşdırma (satınalma, təlim) və keyfiyyət parametrlərini (məsələn, prinsiplər, standartlar) inkişaf etdirməlidir.

İnternet bağlantısı "rəqəmsal təhsil üçün həyati əhəmiyyət" kəsb etsə də, bir çox məktəb üçün hələ də böyük bir problemdir. Bəzi məktəblərdə (Ho Chi Minh City kimi) yüksək internet bağlantısı mövcud olsa da, digər məktəblərdə isə çox aşağıdır. İnternet bağlantısının problem olduğu yerlərdə təhsil sektoru oflayn istifadə edilə bilən təhsil platformaları, məzmunu seçə, prioritetləşdirə və satın ala bilər.

Bununla da ölkələrə rəqəmsal öyrənməni qiymətləndirmək üçün minimum standartlar da daxil olmaqla keyfiyyət təminatı mexanizmlərini planlaşdırmaq tövsiyə olunur. Onlar həmçinin texnologiyadan kənara çıxa, köhnəlmiş tədris və biliklərin mənimsənilməsi modellərini təkrarlamaqdan qaça, daha fərdiləşdirilmiş öyrənmə üçün zəmin hazırlaya, öyrənənlərə sərbəstlik, muxtariyyət  verə bilər.  Burada çeviklik çox vacibdi, əyani,  onlayn və ya hibrid öyrənmə üçün imkanlar yaratmaq bu rahatlığı təmin edə bilər. 2023-cü ildə bu istiqamətdə əldə olunmuş məlumatlar və təcrübələri yeni ölkələrlə bölüşməyi hədəfləyir.

Mənbə: Empowering educators and learners: Insights and strategies from the EdTech Readiness Index. APRIL 26, 2023
https://blogs.worldbank.org/education/empowering-educators-and-learners-insights-and-strategies-edtech-readiness-index

# Avropada məktəbdə xarici dillərin tədrisi ilə bağlı əsas məlumatlar

03

Avropa Təhsil Məkanı müxtəlif xarici dillərin öyrənilməsi, hamı üçün yüksək keyfiyyətli təhsilin və ömür boyu öyrənmənin əlçatan olmasında mühüm rol oynayır. Həmçinin çoxdillilik şəxsin sosial şəraiti, sağlam və davamlı həyat tərzi, məşğulluq, aktiv vətəndaş mövqeyi və sosial inteqrasiya üçün lazım olan əsas səriştədən hesab olunur.

2023-cü ildə Avropa Komissiyası tərəfindən "Avropada məktəbdə xarici dillərin tədrisi ilə bağlı əsas məlumatlar" adlı hesabat nəşr olunmuşdur. Hazırlanmış bu cari hesabatın Avropa ölkələrində fəaliyyət göstərən məktəblərdə (xarici) dil tədrisi sahəsində siyasətin inkişafının monitorinqinə töhfə verəcəyi ehtimal olunur.

Bu hesabata Avropa İttifaqı (Aİ) və milli səviyyədə xarici dil siyasəti ilə bağlı geniş mövzuları əhatə edən aşağıdakı göstəricilər daxildir:

- tədris proqramına (xarici) dillərin daxil edilməsi;
- şagirdlərin öyrəndiyi xarici dillərin sayı və diapazonu;
- xarici dilin tədrisi üçün ayrılan vaxt;
- birinci və ikinci xarici dillər üzrə gözlənilən bilik səviyyələri;
- miqrant şagirdlərə xarici dil dəstəyi və ana dilində tədris;
- xarici dil müəllimlərinin profilləri və ixtisasları;
- xarici dil müəllimlərinin transmilli hərəkətliliyi.

Hesabat 39 ölkədən 16 təhsil sistemini əhatə edir. Təxminən iyirmi il əvvəllə müqayisədə, bu gün təhsil sistemlərinin böyük əksəriyyətində ibtidai sinif şagirdləri daha erkən, yəni 6-8 yaşlardan xarici dil öyrənməyə başlayırlar. Lakin Belçikanın Almandilli İcması, Yunanıstan, Kipr, Lüksemburq, Malta və Polşa kimi ölkələrin təhsil sistemində bu daha erkən həyata keçirilir. Son iyirmi ildə təhsil sistemlərinin təxminən üçdə ikisi məcburi xarici dil öyrənmə müddətini 1 ildən 7 ilə qədər artırmışdır.

Hesabatda qeyd olunur ki, əksər təhsil sistemlərində ibtidai təhsilin ilk illərindən Aİ səviyyəsində ən azı bir xarici dil öyrənən şagirdlərin faizi 2020-ci ildə 86,1% olmuşdur.

Eyni zamanda 2020-ci ildə yalnız üç təhsil sistemində (Belçika və Hollandiyanın Fransız və Flamand İcmaları) ibtidai təhsil alan şagirdlərin 50%-dən azı bir xarici dil öyrənmişdir. Bu təhsil sistemlərində şagirdlərin nisbətinin az olmasının səbəbindən ibtidai məktəbdə xarici dilin məcburi bir fənn kimi öyrənilməsi nisbətən gec başlayır. İbtidai təhsilin sonundan və ya tam orta təhsil pilləsindən başlayaraq ikinci xarici dilin tədrisi həyata keçirilir.

Hesabatda həmçinin 2020-ci ildə Aİ səviyyəsində bütün orta təhsil pilləsində şagirdlərin 59,2%-nin iki və ya daha çox xarici dil öyrəndiyi qeyd olunur. Əksər təhsil sistemlərində şagirdlər ikinci xarici dili icbari fənn kimi ibtidai təhsilin son illərində və ya tam orta təhsilin ilk illərində öyrənməyə başlayırlar. Məsələn, Bolqarıstan, Macarıstan, Avstriya, Sloveniya, Slovakiya, Lixtenşteyn, Norveç və Türkiyə kimi ölkələrin təhsil sistemində ikinci xarici dilin öyrənilməsi bütün ümumtəhsil məktəblərinin şagirdləri üçün yalnız tam orta təhsil səviyyəsində məcburi olur. Eyni zamanda Belçika, Almaniya, İrlandiya, İspaniya, Xorvatiya, İsveç və Albaniyanın Fransız İcması kimi ölkələrdə bütün şagirdlər üçün ikinci xarici dilin öyrənilməsini tələb edən heç bir siyasət yoxdur. Lakin bəzi ölkələrdə iki dili öyrənmək öhdəlik deyil, hüquqdur. Belə ki, milli kurikulum ikinci xarici dili bütün şagirdlər üçün məcburi etmək əvəzinə, onların iki və ya daha çox xarici dildə tədris almalarını təmin etmək üçün müxtəlif imkanlar təqdim edir. Bununla belə, bütün ümumtəhsil məktəblərinin şagirdləri təhsil aldıqları müddətdə bu hüquqa malikdirlər. Belə ki, İspaniyada ilk olaraq tam orta təhsilin əvvəlində, Xorvatiya və İsveçdə ibtidai təhsilin sonunda həyata keçirilir.

Bundan əlavə, hesabatda 2013-2020-ci illər arasında Avropa İttifaqı səviyyəsində orta təhsil pilləsində ən azı iki xarici dil öyrənən şagirdlərin faizində heç bir dəyişiklik olmadığı qeyd olunmuşdur. Aİ səviyyəsində 2013-2020-ci illər arasında tam orta təhsildə ən azı iki xarici dil öyrənən şagirdlərin nisbəti yalnız 0,8% artmışdır. Əksər ölkələrdə isə fərq 10%-dir. Belçikanın Flamand İcmasında, Çexiyada və Fransada iki xarici dil öyrənən şagirdlərin sayı isə 15 % artmışdır.

Digər iki ölkədə (Sloveniya və Slovakiya) tendensiya isə əksinə olmuşdur. Belə ki, iki və ya daha çox xarici dil öyrənən orta məktəb şagirdlərinin nisbətinin 25%-dən aşağı olduğu müəyyən olunmuşdur. Bu, Slovakiyada hər bir şagirdin orta məktəbdə iki xarici dil öyrənməsi tələbinin ləğvi ilə əlaqələndirilir.



Hesabatda bildirilir ki, 2020-ci ildə Aİ səviyyəsində tam orta təhsil pilləsində iki və ya daha çox dil öyrənən peşə təhsili və təlimi (VET) tələbələrinin xüsusi çəkisi 35,1 % təşkil etmişdir. Bu isə ümumi təhsil müəssisələrində təhsil alan həmkarlarından təxminən 25% azdır. 13 təhsil sistemində tam orta təhsildə şagirdlərin ən az 90%-i iki və ya daha çox xarici dil öyrənsə də, peşə təhsilində bu faizə yalnız Rumıniya çatmışdır. 2013-cü illə müqayisədə, əksər ölkələrin orta təhsil pilləsində iki və ya daha çox dil öyrənən peşə təhsili tələbələrinin faiz göstəriciləri sabit qalmışdır.

Demək olar ki, bütün Avropa ölkələrində ibtidai və orta təhsil də daxil olmaqla xarici dil kimi ingilis dili tədris olunur. 2020-ci ildə aparılan araşdırmanın nəticəsinə görə əksər Avropa ölkələrində ən az təhsil səviyyəsində şagirdlərin

90%-i ingilis dilini ibtidai və orta təhsildə icbari olduğundan öyrənir. 2013-2020-ci illər arasında ibtidai təhsildə ingilis dilini öyrənənlərin sayında əhəmiyyətli artım qeydə alınmışdır. Belə ki, 2020-ci ildə Aİ səviyyəsində orta ümumtəhsil müəssisəsində 98,3% şagird, ali təhsil səviyyəsində isə 95,7% tələbənin ingilis dili öyrəndiyi məlum olmuşdur. Bu da onu göstərir ki, hər iki təhsil səviyyəsində ingilis dili öyrənənlərinin göstəriciləri yüksəkdir.

Həmçinin 2020-ci ilidə aparılan tədqiqatın nəticəsi göstərir ki, fransız və alman dili Aİ səviyyəsində ən tələb olunan ikinci xarici dildir. Bu səbəbdən də, bir sıra ölkədə alman və fransız dili məcburi fənn kimi tədris olunur. Belçika, Lüksemburq və İsveçrə kimi çoxdilli ölkələri qeyd etmək olar. Bundan əlavə, 2020- ci ildə Aİ səviyyəsində hər iki təhsil pilləsi üzrə şagirdlərin 5.5% və 30.6%-i fransız dilini ibtidai və orta təhsil səviyyəsində ikinci xarici dil olaraq öyrənmişdir. Hesabatdan o da aydın olur ki, fransız dili ilə müqayisədə alman dili ali təhsil müəssisələrində ən çox arzu olunan ikinci xarici dildir. Əksər Avropa ölkələrində isə təhsil orqanlarının ispan dilinə ingilis, fransız və ya alman dillərindən daha az diqqət yetirdiyi bildirilir. Eyni zamanda heç bir Avropa ölkələrində ispan dili məcburi fənn kimi kurikuluma daxil olmamışdır. Yalnız İsveç və Norveçdə xüsusi təhsil səviyyələrində təhsil alan tələbələrə ispan dilini öyrənmək imkanı yaradılır. 2020-ci ildə ispan dilini təhsil alanların 17,7%-i orta ümumtəhsil müəssisəsində, 18%-i isə ali təhsil müəssisələrində öyrənmişlər. Bu dil İrlandiyada orta təhsil müəssisəsində, Almaniyada ali təhsil müəssisələrində, Fransa, İsveç və Norveçdə isə hər iki təhsil müəssisələrində ikinci dil kimi tədris olunur. Hesabatda o da qeyd olunur ki, Fransa, Norveç və Almaniya, milli testin mövcud olduğu ən çox xarici dilə sahib ölkədir. 2014-2021-ci illərdə isə xarici dilləri məcburi fənn kimi öyrənmək üçün ayrılan vaxt əksər təhsil sistemlərində nisbətən sabit qalmışdır. Ən çox dərs saatı isə 50%-dən çox, Danimarka və Finlandiyada müşahidə olunur.

Hesabatda qeyd olunur ki, ümumi orta təhsilin sonuna qədər şagirdlərin əsas xarici dil üzrə Avropa Şurası tərəfindən yaradılmış Dillər üzrə Ümumi Avropa İstinad Çərçivəsi standartlarının B2 səviyyəsinə çatması gözlənilir.

Eyni zamanda, hesabatda 2018-ci ildə Aİ səviyyəsində yalnız az sayda müəllimin (24,5%) ilkin pedaqoji təhsil sahəsində çoxdilli siniflərdə tədris üçün təlim aldıqları bildirilir. Belə ki, Kipr, ibtidai pedaqoji təhsil (48%) və davamlı peşə inkişafı (37,7%) sahəsində çoxdilli siniflərdə tədris üçün təlim keçmiş müəllimlərin ən yüksək nisbətinə sahibdir.

Avropada xarici dillərin tədrisində ibtidai sinif müəllimlərinin səriştəsi məsələsi müzakirə obyektinə çevrilmişdir. Bu, xüsusən də xarici dilləri tədris edənlərin ixtisas dərəcəsi ilə əlaqədardır. Çünki ənənəvi olaraq geniş profilli müəllimlər bu səviyyədə tədris proqramı aparırlar. Hesabatda o da vurğulanır ki, Avropada ibtidai təhsil sistemində xarici dillərin tədrisi üçün müəllimlərin təyin edilməsində üç yanaşma mövcuddur.

Birincisi, xarici dillərin tədrisi üçün məsuliyyət yalnız mütəxəssis müəllimlərin üzərinə düşür (buna bütün Avropa ölkələri misal göstərilə bilər).

İkincisi, bu məsuliyyət ümumi müəllimlərin üzərinə düşür (Norveç).

Üçünçüsü xarici dillər həm ümumi müəllimlər, həm də mütəxəssis müəllimlər tərəfindən tədris edilə bilər (Buna Xorvatiya və Litva misal olaraq göstərilir).



Bundan əlavə, hesabatda 2013-2018-ci illər arasında Aİ səviyyəsində  xarici dil müəllimlərinin xarici ölkələrdə peşəkar təlimlərdə iştirakının 14,6% artması qeyd olunur. Belə ki, 2018-ci ildə Aİ səviyyəsində orta məktəbdə dərs deyən xarici dil müəllimlərinin təxminən 70%-nin ibtidai pedaqoji təhsil və ya fəaliyyəti zamanı xaricdə təlimlərdə iştirak etdikləri məlum olmuşdur.  Bu da xaricdə oxumaq və ya təlim keçməyin istənilən müəllim üçün əhəmiyyətli olması ilə əlaqədardır. Son dövrlərdə  Aİ səviyyəsində xaricə getməyin əsas səbəbləri “dil öyrənmək”, “peşəkarlığın artırılması çərçivəsində təhsil almaq” olmuşdur. Bu xüsusən xarici dil müəllimləri üçün daha əhəmiyyətli hesab olunur. Çünki xaricə səyahət onların dil bacarıqlarının inkişafına, eləcə də ölkənin mədəniyyəti haqqında bilik və anlayışlara sahib olmağa  kömək edir.

Mənbə: European Commission / EACEA / Eurydice, 2023. Key data on teaching languages at school in Europe – 2023 edition, Eurydice report, Publications Office of the European Union, Luxembourg.

# Qlobal öyrənməni yaxşılaşdırmaq üçün səmərəli yanaşmalar - ən son məlumatlara görə, aşağı və orta gəlirli ölkələrdə öyrənməni yaxşılaşdırmaq üçün "səmərəli xərc" nədir?

ABŞ-ın Xarici İşlər və İnkişaf Nazirliyi, Beynəlxalq İnkişaf Agentliyi, Dünya Bankı və UNICEF-in təşəbbüsü ilə Qlobal Təhsil Sübutları Məsləhət Paneli keçirilmişdir. Bunun əsasında "Qlobal öyrənməni yaxşılaşdırmaq üçün səmərəli yanaşmalar" adlı hesabat hazırlanmışdır. Bu hesabat, aşağı və orta gəlirli ölkələrdə dövlət, eyni zamada təhsilə maraqlı tərəflər üçün təhsil nəticələrini yaxşılaşdırmaq, təkmilləşdirmək üçün öyrənməni həyata keçirməyə dair bələdçi hesab olunur.

Beynəlxalq təhsil sübutları və tətbiqi üzrə qlobal ekspertlərdən ibarət olan Qlobal Təhsil Sübutları Məsləhət Paneli (GEEAP) tərəfindən hazırlanmış cari hesabat Smart Buys (səmərəli xərc) proqramının davamıdır.

Hesabatda qeyd olunur ki, ölkələr ən yaxşı və ən səmərəli təhsil xərclərinə dair məlumatlarını effektiv şəkildə necə ümumiləşdirə və balanslaşdıra bilər. Burada təhsilə qoyulan sərmayənin effektivliyi qruplaşdırılır. Bu bir çox müxtəlif təhsil siyasəti və proqramlarını effektiv-səmərəli xərcdən (Great Buys) səmərəsiz xərclərə (Bad Buys) doğru kateqoriyalara ayırır.

**(Great Buys) Effektiv-səmərəli xərc**-bu olduqca səmərəli xərcdir və aşağıda qeyd olunan inandırıcı faktlara əsaslanan məlumatlarla dəstəklənir.

- Təhsilin faydaları, xərcləri və keyfiyyəti haqqında məlumatların verilməsi;
- Təkmilləşdirilmiş dərs planları, təlim materialları ilə müəllimlərə dəstək;
- Tədris təlimatının sinifə deyil, öyrənmə səviyyəsinə yönəldilməsi.

**(Good buys) Əlverişli xərclər** - bu xərclərin səmərəli olduğuna dair aşağıdakı sübutları qeyd etmək olar.

- Valideynlər tərəfindən idarə olunan erkən uşaqlıq stimullaşdırma proqramlarının təmin edilməsi (0-36 aya qədər);
- Keyfiyyətli məktəbəqədər təhsilin təmin edilməsi (3-5 yaş üçün);
- Məktəblərə gediş-gəliş vaxtının azaldılması;
- Aztəminatlı uşaq və gənclərə təqaüdlərin verilməsi.

**(Promising but Limited Evidence) Ümidverici, lakin məhdud sübutlar:** Burada səmərəli-effektiv araşdırmalar olsa da, lakin səmərəli xərclərə dair heç bir sübut yoxdur.

- Fərdi öyrənməyə imkan verən və uşağın öyrənmə səviyyəsinə uyğun olan proqram təminatından istifadə;
- Kollektivin az məvaciblə çalışan heyətlə artırılması;
- Məktəb tərəfindən sağlamlıq imkanı məhdud şəxslərə qayğının təmin edilməsi;
- Öyrənməni dəstəkləmək üçün texnologiyalardan istifadə edilməsi;
- Tələbələrin zorakılıqdan qorunması;
- Sosial-emosional və həyati bacarıqların öyrədilməsi;
- İcmaların məktəb idarəçiliyinə cəlb edilməsi;
- Qızların təhsilinə yönəlmiş müdaxilələrdən qorunması.

**(Effective but Relatively Expensive) Effektiv, lakin nisbətən bahalı:** Bunun təsirli olduğuna dair əsaslı sübutlar olsa da, lakin təlim nəticələrinə nail olmaq üçün sərf olunan xərc nisbətən bahalıdır. Bu xərc qrupu yüksək büdcəli və təminatlı məktəblər üçün uyğun ola bilər.

- Öyrənmənin yaxşılaşdırılması üçün vəsaitin cəlb olunması və effektiv xərclənməsi;
- Ümumtəhsil məktəblərində sağlam qidalanmanın təmin olunması.

**(Bad buys) Səmərəsiz xərclər:** Əldə olunmuş və sınaqdan keçirilmiş sübutlar göstərir ki, aşağıda qeyd olunmuş xərclər təhsilə cəlb olunmuş səmərəsiz xərc qrupudur.

- Yalnız noutbuk, planşet və kompüter kimi avadanlıqlara investisiya qoyulması;
- Digər məsələlər həll edilmədiyi halda belə yeni materialların verilməsi;
- Keyfiyyətsiz dərsliklər;
- Sinifdə şagird sayını azaltmaq üçün əlavə müəllimlərin cəlb olunması;
- Məktəb binaları;

Hesabatda qeyd olunur ki, bu qruplaşdırmanı hazırlamaq üçün Panel nümayəndələri 13.000-dən çox əlavə tədqiqat üzərində sistematik araşdırma apararaq 400-dən çox qiymətləndirmə nəticəsi əldə ediblər. Həmçinin əldə olunmuş qiymətləndirmələr müxtəlif meyarlara əsasən yenidən təkmilləşdirilmişdir.




Belə ki, ilk növbədə, onların təlimin təkmilləşdirilməsi xərcləri və digər nəticələr baxımından nə qədər effektiv olduğu, nə dərəcədə geniş miqyasda uğurla həyata keçirilib-keçirilməməsi araşdırılıb. Araşdırma əsasında yuxarıda qeyd olunan xərc qruplarına görə təsnif edilib.

Mənbə: 2023 Cost-Effective Approaches to Improve Global Learning - What does recent evidence tell us are “Smart Buys” for improving learning in low- and middle-income countries? [K. Akyeampong, T. Andrabi, A. Banerjee, R. Banerji, S. Dynarski, R. Glennerster, S. Grantham-McGregor, K. Muralidharan, B. Piper, S. Ruto, J. Saavedra, S. Schmelkes, H. Yoshikawa]. London, Washington D.C., New York. FCDO, the World Bank, UNICEF, and USAID.